*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 176-181* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.176*

# Stefan Svayqın "Qorxu" əsərinin psixoanalitik təhlili: persona və kölgə

**Ayşən Qaraxanova**
E-mail: aysenqaraxanova7@gmail.com

**Annotasiya.** Məqalədə Stefan Svayqın "Qorxu" əsərinin əsas obrazı İrene xanım haqqında qısa məlumat verilmiş, daha sonra obrazın daxili aləmi psixoloji cəhətdən təhlilə cəlb olunmuşdur. İren obrazının psixoanalatik təhlilində Karl Qustav Yunqun persona və kölgə arxetipləri əsas model kimi götürülmüşdür. İrene obrazı psixologiyanın kölgə və persona arxetipləri, eləcə də vicdan, utanc, instinkt kimi anlayışları haqqında nəzəri informasiyalar əsasında təhlil edilmişdir. Obrazın psixoloji məqamları, keçirdiyi hisslər, reaksiyaları və davranışları ayrılıqda göstərilib izah olunmuşdur. Yaşadığı hisslər və dinamikası, dəyişikliklərin səbəbləri və nəticələri ədəbiyyatın və psixologiyanın kəsişmə nöqtələrində izlənilmişdir. Obrazın persona və kölgə arxetipinə nəzərən strukturlaşmasının aspektləri göstərilmişdir.
**Açar sözlər:** Stefan Svayq, Karl Qustav Yunq, arxetip, kölgə, persona

**Məqalə tarixçəsi:** göndərilib – 26.04.2024; qəbul edilib – 13.05.2024

# A psychoanalytic analysis of Stefan Zweig's work "Fear": Persona and the Shadow

**Ayshan Garakhanova**
E-mail: aysenqaraxanova7@gmail.com

**Abstract.** The article provides a brief overview of the main character, Irene, from Stefan Zweig's work "Fear", followed by a psychological analysis of her inner world. Carl Gustav Jung's archetypes of persona and shadow are employed as the primary model in the psychoanalytic analysis of Irene's character. The analysis is conducted based on theoretical concepts such as the shadow and persona archetypes in psychology, as well as notions like conscience, shame, and instinct. The character's psychological aspects, emotions, reactions, and behaviors are separately presented and explained. The feelings she experiences, their dynamics, and the causes and effects of these changes are explored at the intersection of literature and psychology. Aspects of Irene's structural development in relation to the persona and shadow archetypes are also highlighted.
**Keywords:** Stefan Zweig, Carl Gustav Jung, archetype, shadow, persona

**Article history:** received – 26.04.2024; accepted − 13.05.2024

## Giriş / *Introduction*

Psixoanaliz ədəbi tənqid və təhlil üçün mühüm alətlərdən biri hesab olunur. Ədəbi əsərləri anlamaq bəzən personajların daxili proseslərini, onların şüuraltı motivasiyalarını araşdırmaqla mümkün olur. Stefan Svayq bədii yaradıcılıq prosesini özünü əsərə çevirən yaradıcılıq qabiliyyəti kimi görürdü. Onun fikrincə, bu proses rasional deyil. Bu, izahı mümkün olmayan bir sirrdir. O qədər ki, hətta yazıçı da bu ekstaz və özünüunutma anında yaradıcılığın necə baş verdiyini tam izah edə bilmir. "*Sənət əsərinin yaradılması daxili hadisədir; İstənilən halda bu, dünyamızın yaranması kimi sirr, gözəgörünməz, zülmətə bürünmüş ilahi hadisə olaraq qalacaq*" [7, s.27].

## Əsas hissə / *Main part*

Ədəbiyyat və psixologiyanın kəsişmə nöqtəsində mətnə yanaşma da fərqlidir. Əslində, yazıçı əsəri yazarkən, sadəcə, obrazın xüsusiyyətlərini göstərmir, bu xüsusiyyətlərin obrazda necə yarandığını, nədən qaynaqlandığını da göstərməyə çalışır. Bunu göstərmək üçün yazıçıya, bunu anlamaq üçün isə oxucuya psixoloji bilik lazımdır. Biz hər bir əsərdə fərqli obrazlar görürük. Yazıçılar obrazların daxili dünyasını, xarakterini, psixoloji vəziyyətini dolğun şəkildə əks etdirirlər. Bunlar oxucuya obrazla empatiya qurması üçün şərait yaradır. Bu zaman oxucu obrazları analiz edir, psixologiya, psixoloji bilik isə obrazları daha dərin analiz etmək üçün istifadə olunur.

### Analitik psixologiya və K.Q.Yunqun arxetipləri

Analitik psixologiyanın qabaqcıllarından biri olan Karl Qustav Yunq psixologiya sahəsində ən mühüm tədqiqatçılardan biridir. Karl Qustav Yunq analitik psixologiya nəzəriyyəsini Freydin psixoanaliz nəzəriyyəsinin əsasları üzərində qurmuşdur. Şüurun varlığını qəbul edən Yunq insan ruhunu üç hissədən ibarət struktur kimi müəyyən etmişdir. Yunq insan ruhunu şüura, şəxsi təhtəlşüura, kollektiv təhtəlşüura bölür. Erkən dövrdə Freyddən təsirlənən və bu səbəbdən onun yazılarını və düşüncələrini təqib edən Yunq sonrakı illərdə "analitik psixologiya" adı altında sərbəst və Freydin fikirlərindən asılı olmayaraq fəaliyyət göstərmişdir. O, mənəvi inkişafla bağlı araşdırmalar aparıb. Bu araşdırmalar fərdlərin şüur strukturları və düşüncə sistemlərinin daha qədim dövrlərə aid strukturlarla əlaqəli ola biləcəyini başa düşüb. Yunqun psixologiya sahəsinə verdiyi ən mühüm töhfələr arxetip və kollektiv təhtəlşüur anlayışlarıdır. Yaradıcılığı boyunca Yunq eqo, kölgə, anima/animus və mənlik arxetiplərini, kompleksləri, ekstroversiya və introversiya ilə sıx əlaqəli olan düşüncələr, hisslər, intuisiya və emosiyalar kimi psixoloji tipləri araşdırmışdır. Yunq analitik psixologiya ilə bağlı fikirlərini belə izah etmişdir: "*Analitik psixologiya ilə əvvəlki psixologiyalar arasındakı fərq odur ki, analitik psixologiya ən çətin və mürəkkəb proseslərin öhdəsindən gəlməkdən belə çəkinmir. Başqa bir fərq metoddadır. Mürəkkəb laboratoriya avadanlıqlarımız yoxdur. Laboratoriyamız dünyadır. Testlərimiz insan həyatının faktiki, gündəlik hadisələri ilə əlaqədardır və subyektlərimiz xəstələrimiz, qohumlarımız, dostlarımız və sonda isə özümüz. Tale eksperimentator rolunu oynayır. Laboratoriya təcrübələri üçün lazım olan istənilən iynə ucu, süni zərbə, sürpriz işıq və avadanlıq yoxdur. Materialımız real həyatın ümidləri və qorxuları, ağrıları və sevincləri, səhvləridir*" [5, s.683].

Qeyd etdiyimiz kimi, arxetip anlayışı psixologiyaya Karl Qustav Yunq tərəfindən gətirilmişdir. Arxetiplərin təsirləri bütün sənət əsərlərində özünü göstərir. Bu əsərlər bəşəriyyətin ortaq düşüncəsi olduğu təəssüratını yaradır. "*Yunq arxetipləri çox güclü emosional aspektə malik universal düşüncə formaları kimi təyin edir. Arxetiplər hər bir insanın quruluşunda mövcud olan və nəsildən-nəslə irsi olaraq davam edən ekzistensial xüsusiyyətlərdir. Yunan "arxetipos" anlayışından yaranan arxetip ilk universal simvoldur. Şəkillər, personajlar və ya naxışlar kimi müəyyən edilir. Yunq bütün arxetiplərin mənşəyininin kollektiv şüuraltından qaynaqlandığını və bunun sayəsində insanların öz əcdadlarının keçmişi ilə əlaqə qura bildiyini vurğulayır*". (5, 685).

Karl Qustav Yunq ən məşhur arxetiplər kimi persona, kölgə, anima, animusu müəyyən etmişdir. Persona qədim dövrlərdə aktyorların geyindiyi simvolik maskanın adı kimi də tanınır. Bu maska ilə eyniləşdirən şəxs fərdin əksi mənasını verən persona adlanır. "*Persona insanın ictimai simasıdır və insan bu sifətdən həm şüurlu, həm də şüursuz istifadə edir. Persona başqalarının gözləntilərini qarşılamaq üçün qurulan, hər kəs üçün açıq olan mənlikdir*" [5, s.686]. Kölgə isə insanların cinsini təmsil edən və onların həmcinsləri ilə münasibətlərini tənzimləyən arxetipdir. Kölgə fərdin fərqində olmadığı və şüuraltında gizli qalan cəhətləri ehtiva edir. Çox vaxt mənfi xüsusiyyətlər (məsələn, qəzəb, qısqanclıq, qorxu) kimi düşünülsə də, kölgə müsbət, lakin sıxışdırılmış potensiya və qabiliyyətləri də əhatə edə bilər. Yunqun nəzəriyyəsində insanın depressiya və ya problem yaşadığı dövrlərin eqonun nəzarət altında saxlanıldığı və kölgə arxetipinin mənliyi basdırdığı anlar olduğu, insanların ani qərarlar və qərarsızlıq hallarında kölgənin aktiv bir funksiyaya sahib olduğu da izah edilmişdir. Bu mənada kölgənin rədd edildiyi şəxsiyyətin sönük qalacağı bildirilir [5, s.686]. Yunq kölgəni iki hissədə izah etdi: şəxsi zəifliklərin və qüsurların aşkar edildiyi şəxsi kölgə və bütün insanların ümumi davranışını təmsil edən kollektiv kölgə. Yunqun şəxsiyyətin mənfi tərəfi olaraq təyin etdiyi kölgə, insanın inkişaf etməmiş funksiyalarının, şəxsi şüursuz məzmunlarının və gizlətmək istədiyi xoşagəlməz keyfiyyətlərin cəmi deməkdir. Yunqa görə, insanın analiz zamanı qarşılaşdığı ilk arxetip adətən kölgədir. Kölgə, insanın xarakterinə, xəyallarına və ya simvollarına əks olunması kimi müxtəlif formalarda görünən şüuraltının qaranlıq qüvvələri kimi tanınır.

**Stefan Svayqın "Qorxu" əsərində arxetiplər**

Stefan Svayq yaradıcılığı ilə dünya ədəbiyyatının tarixində xüsusi yer tutur, özünə xas xüsusiyyətləri ilə seçilir. Yazıları dünya ədəbiyyatına dərindən təsir edən və təsiri bu günə qədər davam edən Svayqın "Yad qadının məktubu", "Bir qadının həyatından iyirmi dörd saat", "Bəşəriyyətin ulduzlu saatları", "Dünənin Dünyası", "İblislə savaşanlar", "Şahmat", "Möcüzəvi gecə", "Məcburiyyət", "Dəhşətli sirr" və digər əsərləri vardır. Psixologiyaya və Freyd təliminə marağı olduğu üçün Svayqın əsərlərində dərin insan xarakterlərinə rast gəlmək mümkündür. Belə əsərlərdən biri də "Qorxu"dur. Bu əsərdə xəyanət edən qadının psixoloji halı, keçirdiyi hisslər öz əksini tapıb. Əsərin əsas obrazı İren evli qadındır və iki övladı var. O, monoton həyatından sıxılır və macəra axtarır. Bu macəra axtarışı həyat yoldaşına xəyanət etməsinə səbəb olur. Xəyanətə söykənən macəra isə arxasında günahkarlıq və utanc duyğusunu gətirir. Hər dəfə sevgilisinin evindən çıxanda özünü günahkar hiss edir, sanki küçədəki yad insanlar tərəfindən ittiham olunur. Günahkarlıq duyğusu və vicdan əzabı bu situasiyada obrazın daxilindəki psixoloji konflikti göstərən əsas məqamlardır. Psixologiyada vicdan "görülən hərəkətlərin və ya düşüncələrin doğru və ya yanlış olduğuna qərar verən daxili əxlaqi prinsiplər toplusu kimi müəyyən edilir" [6, s.27]. K.Q.Yunq psixologiyasında vicdan təkcə ağıl dediyimiz sahədən deyil, daha çox emosional sahədən qidalanır. Yunqa görə əxlaq insanın daxili dünyasının bariz xüsusiyyətidir. Yunq psixologiyasında arxetip instinktin şəxsiyyət yönümlü aspektinə aiddir. Bu kontekstdə Yunq psixologiyasında iki anlayış arasında qurulan əlaqə nəticəsində vicdan həm instinkt, həm də arxetip kimi görünür" [6, s.27]. İrenenin sanki küçədəki hər kəsin ona baxdığını hiss etməsi isə günahkarlıq hissinin bir yansıması idi. Özünü günahkar hesab etdiyi üçün hər kəsin də onu günahkar bildiyini hiss edirdi. Təhdid edən qadının İrenə dedikləri İrenin personasını üzə çıxarır. Qadın deyir: "Əlbəttə, getməlisiniz. Yoldaşınızın yanına, isti yuvanıza getməli, yenidən xanım kimi görünməli, üstünüzdəkiləri çıxarmalı və xidmətçiləri çağırmalısınız" [8, s.7]. Psixoloji qaynaqlarda oxuyuruq: "Persona insanın ictimai simasıdır və insan bu üzü həm şüurlu, həm də şüursuz şəkildə geyinə bilər. Persona, başqalarının gözləntilərinə cavab vermək üçün qurulmuş, ictimaiyyətə açıqlanmış bir mənlikdir" [5, s.6]. Daha qısa formada desək, fərqli vəziyyətlərə görə fərqli maskalar istifadə edirik. İrene yaşadığı cəmiyyətə uyğun olaraq əsilzadə və kübar qadın, ana və həyat yoldaşı personalarından istifadə edir. Ən çox taxdığı maska əsilzadə və kübar qadın maskası idi. "Biz üstün

funksional tipimizə əsaslanaraq ümumi persona qəbul edirik, çünki bunu etmək bizim üçün daha asandır" [2, s.91]. İrenenin evinə gələndə, vərdiş etdiyi həyatı gördüyü zaman sakitlik tapması personanın özünü göstərməsidir. O, personasıyla özünü eyniləşdirmişdir. Əvvəlcə kölgəsini tanımır və onu basdırır, amma zaman keçdikcə basdırılmış kölgə onu macəraya sürükləyir "Psixi sağlamlıq və tarazlıq ahəngdar personadan asılıdır, çünki sosial mübadiləni mümkün edən ahəngdar personadır. Təhlükə tamamilə persona ilə eyniləşmək və sadəcə oynanılan roldan ibarət qalmaqdır" [2, s.92]. İrenenin yoldaşı onu öpərkən, ona şəfqətli davranarkən onda sıxıntılı bir utanc duyğusu yaranırdı. Karl Qustav Yunqa görə, utanc vicdanın səssiz fəryadıdır. "*Mövcud vicdan sosiallaşma ilə ictimai qaydalara çevrilir. Cəmiyyətin yaxşı və pis adlandırdığı hallar ortaya çıxmağa başlayır. İnsan özünü həm öz vicdanına, həm də cəmiyyətin yaratdığı vicdana görə tənzimləyir"* [6, s.32]. Psixoloji aspektdən vicdanın izahında fərdi və ümumi olan qarşılıqlı dialoqdadır. Vicdan həm də fərdi inkişafın göstəricisidir, insanın xarakterinin formalaşmasına təkan verir. Lakin fərdi inkişaf təkcə persona və atributları ilə mümkün deyil. *"İnsan öz fərdi inkişafına nail olduqdan sonra vicdanını da inkişaf etdirə biləcək. Bu, onu özünü, müsbət və mənfi cəhətlərini bilən bir insana çevirəcək. Bütöv insan olmaq şəxsiyyətin diqqətdən kənarda qalan tərəfləri ilə barışmaq deməkdir"* [6, s.35]. İren isə diqqətdən kənar tərəfi ilə, yəni kölgəsi ilə barışmaq istəmirdi. Ümumiyyətlə, kölgə tərəfini tanımırdı. Elə buna görə də bütünləşmiş insan ola bilmirdi. İrenenin ruhuna yad, istək duymadığı, fiziki və mənəvi bağlılıq hiss etmədiyi insanla yaxınlaşması sadəcə macəra istəyindən və bir başqası tərəfindən istənmənin zövqündən irəli gəlirdi. *"Kölgə bizim qaranlıq tərəfimizdir. Kölgənizi xarakterizə edən, eqonunuzun başqalarından gizlətmək istədiyi heyvani keyfiyyətlərdir"* [2, s.87]. Kölgə günahkarlığı, arzuları ifadə edir. Kölgə inadkarlığı sevir. Kölgənin istəkləri hər dəfə rədd edildikdən sonra o güc qazanır. Təsadüfi deyil ki, əsərdə aşiqinin ondan yol göstərmisini istəməsi və onun üçün böyük dəyəri olduğunu hiss etdirməsi İreneni qürurlandırırdı. Özünə qarşı heyranlıq istəyirdi. İnsan kim olduğunu bilməyəndə özünü başqalarının baxışında, sözlərində axtarır. O düşünürdü ki həyat yoldaşına öz iradəsi xaricində xəyanət edib. Yenə kölgə tərəfini qəbul edə bilmirdi. Sonda isə ilk dəfə özünün buna qərar verdiyini qəbul etdi. Onun instinkti isə onun marağına səbəb olan başqalığa müqavimət göstərirdi. *"Biz özümüzü tanıdıqca, öz ruhumuzu kəşf etdikcə instinktlərimizlə qarşılaşırıq və onların obrazlar dünyası ruhun içində yatan və hər şey yaxşı getdikcə nadir hallarda fərqinə vardığımız qüvvələrə işıq salır"* [4, s.121]. O başqa həyat haqqında xəyallar qururdu. Bu xəyallar onu istəmədiyi bir yerə aparırdı. Çünki orada zəhmət çəkmədən sevilirdi, amma yenə də sevmirdi. İrene öz sevgilisiylə qarşılaşanda gözlərinin rəngini, üzünü, toxunuşlarını xatırlamırdı. Bir zamanlar bu insanın onun sevgilisi olması ona yuxu kimi gəlirdi. O sevmirdi, amma şərtsiz sevilirdi. Real həyatda isə uşağını, övladını sevmək üçün zəhmət çəkməyi öyrənməli idi. Dərindən dinləmək, tanımağa çalışmaq, empatiya qurmaq, anlamağa çalışmaq, dərin, doyumlu münasibətlər qurmağı öyrənmək onun üçün çətin idi. İnsanlar çox vaxt başqasına fərqli və maraqlı bir dünya kimi baxa bilmir. Çünki özlərinə qarşı da bunları etməyi bacarmırlar. Hiss etmək isə çətindir. İnsan heç nə hiss etməyəndə, onu heçnə incitmir. İrenenin hər istəyi yerinə yetmişdir. Hər diləyi qəbul olmuş bu qadın bu səbəblə istəksizləşmişdi. Öz istəkləri və xəyalları olmamış bu qadın əslində heç xəyallarının nə olduğunu belə bilmirdi. Cəmiyyətin onun üçün biçdiyi rolu oynayır, həyatı yaşayırdı. Ona özünü ifadə etməyə icazə verilməmişdir. Elə buna görə də dərin münasibət qura bilmirdi. Kölgəsini görməzdən gəlirdi. İnsanın cəmiyyətdə var olması və bütün insan kimi hiss etməsi üçün kölgəsindəkiləri əhliləşdirməsi lazımdır. Kölgəsini qəbul etməyən, heyvanı düşüncələrini basdırmış insan duyğularını və özüylə dialoqunu itirmək məcburiyyətində qalır. Kölgə olmadan yaşam ruhsuz və cılız olur. Eqo və kölgə birlikdə olanda insan yaşam dolu və canlı hiss edər. Eqo kölgənin varlığını qəbul edər. Kölgəsini rədd edən insan sönükdür. Bütün, tam insan kölgəsini qəbul edib, onu idarə edə billəndir. Küçədə gəzəndə özünə yönələn hər baxış xoşuna gəlirdi. Rəqs etmək ehtiyacı addımlarını belə dəyişirdi. Artıq əvvəl görmədiyi hər şey indi ona dəyərli görünürdü. Yoldaşına xəyanət etməsində azad qərar verdiyini başa düşəndə artıq az

da olsa, kölgəsini görməyə başladı. Bildirilir ki, eqo və kölgə əməkdaşlıq etdikdə insan özünü həyat dolu hiss edir, zehni funksiyaları canlanır, fiziki fəaliyyəti də artır. *"İnsanın depressiyaya uğradığı və ya problem yaşadığı dövrlərin eqonun nəzarətdə saxlanıldığı və kölgə arxetipinin eqonu basdırdığı anlar olduğu, insanların verdiyi ani qərarlar və qərarsızlıq hallarında kölgənin aktiv bir funksiyaya sahib olduğu da bildirilir. Bu mənada kölgənin rədd edildiyi şəxsiyyətin sönük qalacağı bildirilir"* [5, s.6]. Gündəlik yaşayışında rəqs etmək istəyini, qanındakı bu sehri itirməkdən qorxurdu. Əslində kölgəsini tanıyarsa və qəbul edərsə, özünü tanıyar. Özünü tanıdıqca özüylə, həyat yoldaşı və uşaqları ilə dərin, doyumlu münasibət qurmağa başlayar. Beləliklə, bu sehri gündəlik, adi həyatında hiss edər. İrene səkkiz ildir ki, evli idi, amma sadəcə indi anlayırdı ki, yoldaşını heç tanımırdı. İnsan kimisə sevəndə onu tanımaq istəyir. Əgər insan kimisə tanımaq istəmirsə, onu sevmir. Sevməyi öyrənə bilməyib. Deməli, insanda başqası ilə maraqlanmaq kimi anlayış yoxdur. İren indi anlayırdı ki, əslində, ərini izləmək xoşuna gəlir və onunla fəxr edir. Bunu anlayanda içində nəyinsə titrədiyini hiss etdi. Öz varlığından da sıxılan qadın üçün ev müvəqqəti sığınacaqdan başqa bir şey deyildi. Evdə özünü yad hiss edirdi. Digər tərəfdən, küçələr və teatrlar yenilikləri və asan qarşılaşmaları ilə sosial mühitlər onun sevimli məkanları idi, çünki onlardan həzz almaq üçün heç bir daxili səy tələb olunmurdu. O, soylu və kübar qadın olduğu üçün belə mühitlərdə dərinlikdən uzaq və heç bir şərtsiz insanlardan hörmət, dəyər görürdü. Sadəcə bir müddətlik əhvalı yaxşı olurdu, amma daxildəki boşluq davam edirdi. Dərindən o dəyər hissi gəlmirdi.İnsan özünə aid olan aspektlərə sahiblənməyəndə, onda özünü çarəsiz və çıxılmaz vəziyyətdə hiss edir. Uşaqları ilə həddindən artıq soyuq münasibət qurmasının səbəbi isə ana rolunda özünü itirmək qorxusundan irəli gəlirdi. Özünü bir individual kimi qoruyub saxlamağın yolu uşaqları ilə özünün arasındakı o soyuq məsafəni qorumaq idi. Belə ki, İrene kübar, əsilzadə, cəmiyyət qadını personasını daha çox sevirdi və bu persona ilə bütünləşmişdi. Özünü müdafiə edərkən dediyi sözlərin saxtakarlığından özü də təəccüblənir. Əslində, necə bir insan olduğunu öz kölgəsi ilə qarşılaşanda görür. İrenin yemək süfrəsində əyləncəli halı, sinirləri titrəyərkən gülümsəməyə çalışması cəmiyyətin onda tələb etdiyi personası idi. Düşündüyü tək şey uşaqlarını və özünü ifşa olmanın utancından qorumaq idi. İntihar etmək istəyəndə belə yenə heç kəsin onun cəmiyyətin qaydalarını pozduğunu bilməsini istəmirdi. Persona cəmiyyətin gözləntilərinə uyğunlaşmaq üçündür. İren zamanla kölgəsi ilə üzləşdikdən sonra özünü tanıyıb, dərin münasibətlər qurmağı bacarır. Hətta bir səhər oğlunun səsinin ərinin səsinə necə bənzədiyini hiss edir. Analitik psixologiyaya görə, Öz/Self olmaq üçün kölgə ilə üzləşmək və personanın sadəcə bir maska olduğunu başa düşmək lazımdır. Yalnız bu yolla insan şəxsiyyət ola bilər. İnsanın özünü tanıması, bütün hiss etməsi gerçək yaşamağın yeganə yoludur.

## Nəticə / *Conclusion*

Belə qənaətə gəlmək olar ki, Stefan Svayq əsərdə özünü tanımayan, özü haqqında məlumatı olmayan insanın boşluq və natamamlıq hisslərini əks etdirib. Yazıçı insanın öz kölgə tərəfini tanıyanda onu daha çox sahibləndiyini və idarə edə bildiyini göstərir. Əsərdən anlamaq olar ki, bunun sayəsində insan özünü bütünlüklə tanıyır. Özünü tanıyan insan isə daha xoşbəxt, zövq alaraq yaşayır. İnsanın kölgəsi ilə üzləşməsi özünü tanımaq və bunun nəticəsində digər insanları da tanımaq, insanlarla daha doyumlu və sağlam münasibətlər qurmağa şərait yaradır. Əsərdə personası ilə bütünləşən insanın canlı hiss etmək, boşluq hissini kompensasiya etmək üçün istəmədiyi yerlərə, vəziyyətlərə sürükləndiyi göstərilir. Yazıçı göstərmək istəyir ki, insan öz kölgəsini qəbul edib onu idarə etməlidir və bununla birlikdə ahəngdar persona lazımdır, amma persona ilə bütünləşmək olmaz.

**Ədəbiyyat / *References***

1. Akdoğan, R. Psikolojik yardım sürecinde terapötik bir hedef olarak içgörü. Psikiyatride güncel yaklaşmlar. 2014. №4. 375-388 s. https://dergipark.org.tr/tr/pub/pgy/issue/11144/133296
2. Hyde, M. Yeni başlayanlar için Jung. Milliyet kitapları, 1997. – 175 s.
3. Jung, K.G. Dörd arketip. Metis yayınları, 2001. – 168 s.
4. Jung, K.G. Keşfedilmemiş benlik. İlhan yayınları, 1999. – 112 s.
5. Kavut, S. Carl Gustav Jung kavramları, kurumları ve düşünce yapısı üzerine bir inceleme. Uluslararası kültürel ve sosyal araştırmalar dergisi. 2020. №2. – 681-695 s. https://dergipark.org.tr/tr/pub/intjcss/issue/58831/620975
6. Pirci, C.B. Carl Gustav Jung psikolojisinde vicdan kavramı ve ahlaki görecelik sorunu. 2019. (Yüksek Lisans Tezi)
7. Taşdelen, V. Edebiyat ve Psikoloji. Bizim Külliye, 2015. – 25-30 s.
8. Zweig, S. Korku. Kızıl panda, 2021. – 80 s.

## Психоаналитический анализ «Страха» Стефана Цвейга: Персона и Тень

**Айшан Гараханова**
E-mail: aysenqaraxanova7@gmail.com

**Резюме.** В статье представлены краткие сведения о госпоже Ирен, главной героине романа Стефана Цвейга «Страх». Позже внутренний мир образа был подвергнут психологическому анализу. Главная героиня Ирен объясняется и исследуется на основе личности и теневых архетипов известного психоаналитика Карла Густава Юнга. Дана информация о психологических понятиях, таких как теневые и персонифицированные архетипы, совесть, стыд, инстинкт. Отдельно показаны и объяснены психологические моменты, чувства и реакции изображения. Отражены причины и последствия пережитых чувств и изменений. Показаны аспекты персоны образа и теневого архетипа.
**Ключевые слова:** Стефан Цвейг, Карл Густав Юнг, архетип, тень, персона